# 2016-cı ildə Azərbaycanın iqtisadi çətinlikdən çıxması təmin ediləcək

## Ötən ilin yekunlarını təhlil edən politoloq Fikrət Sadıxov 2015-ci ildə baş vermiş 3 mühüm hadisəni xüsusi fərqləndirir

**Artıq 2015-ci il sona çatır. Yola salmağa hazırlaşdığımız bu il də ictimai-siyasi və iqtisadi baxımdan bir çox hadisələrlə yadda qaldı. Qərb-Rusiya maraqlarının toqquşması, neftin qiymətinin ucuzlaşması, Şərq regionunda müharibə ocağının daha da alovlanması, İraq Şam İslam Dövləti (İŞİD) terrorçularına qarşı koalisiyaların sayının 3-ə çatdırılması, milli valyutamızın dollar qarşısında iki dəfə dəyərdən düşməsi, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapa bilməməsi bu kimi hadisələrdəndir. Qeyd olunanlarla bağlı "Kaspi"nin suallarını politoloq Fikrət Sadıxov cavablandırır.**



**- Fikrət müəllim, yola salmağa hazırlaşdığımız 2015-ci ili ictimai-siyasi hadisələr baxımından necə qiymətləndirirsiniz? Cari il Azərbaycan üçün hansı mühüm hadisələrlə yadda qaldı?**

- Ölkələrin daxili və xarici siyasətlərinə təsiri, hadisələr baxımından illər bir-birindən fərqlidir. Bu mənada 2015-ci il də özünəməxsus hadisələrlə yadda qaldı. Azərbaycan üçün önəmli hadisələrə gəlincə, mən 3 mühüm hadisəni qeyd etmək istərdim. Bunlardan birincisi dünyada, o cümlədən Avropa məkanında ilk dəfə keçirilən I Avropa Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi oldu. İyun ayının təxminən 20 gününü əhatə edən bu beynəlxalq idman tədbiri müddətində bütün dünyanın diqqəti Azərbaycana yönəldi. Yer planetinin müxtəlif ərazilərində yaşayan insanlar Azərbaycan adlı Şərq ölkəsinin beynəlxalq əhəmiyyətli turnirə ən yüksək səviyyədə ev sahibliyi etdiyini gördülər. Paralel olaraq bu idman yarışı Azərbaycanı, onun tarixini, mədəniyyətini, insanlarının həyat tərzini dünya ictimaiyyətinə bir qədər də yaxından tanıtdı. Siyasi baxımdan da I Avropa Oyunları Azərbaycanın beynəlxalq nüfuzuna müsbət təsir göstərən tarixi hadisə oldu. İlin ən mühüm ikinci hadisəsi kimi noyabrın 15-də Türkiyənin Antalya şəhərində "Böyük İyrimilik" ölkələri liderlərinin sammitinin keçirilməsini, Azərbaycan Prezidenti İlham Əliyevin də həmin sammitə dəvət edilməsini göstərmək olar. Prezident İlham Əliyev bu sammitdəki çıxışında son illər ölkəmizin iqtisadi inkişaf yolunda əldə etdiyi mühüm nailiyyətlərdən, Azərbaycanda yaradılmış əlverişli sərmayə mühitindən, işsizliyin aradan qaldırılması, yoxsulluğun kəskin şəkildə azaldılması istiqamətində görülən işlərdən söhbət açdı, dövlətimizin milli maraqlara söykənən müstəqil siyasətini, Dağlıq Qarabağ problemini, haqlı mövqeyimizi, Ermənistanın münaqişənin həllində qeyri-konstruktiv mövqeyini bir daha dünya ictimaiyyətinə çatdırdı. Azərbaycan "Böyük İyrimilik" sammitində de-yure olmasa da, de-fakto üzv kimi iştirak etdi, sözünü deməyi bacardı. Ən nəhayət, üçüncü mühüm hadisə kimi Prezident İlham Əliyevin Çinə dövlət səfərinə getməsini qeyd etmək olar. Səfər çərçivəsində dövlətlərarası bir sıra sənədlər imzalandı, ictimai-siyasi baxımdan bir sıra yaddaqalan hadisələr baş verdi. Həmin səfər zamanı razılaşdırılan məsələlərdən biri də qədim İpək Yolunun işə salınması layihəsidir. Bunun üçün Azərbaycanda bütün infrastruktur var. Xəzər dənizi vasitəsilə Asiyadan, Çindən gəmilərlə gətirilən yüklərin Azərbaycan limanlarına çatdırılması, buradan dəmir yolu vasitəsilə həmin yüklərin Türkiyəyə, oradan da Avropaya çatdırılması mümkündür. İqtisadi baxımdan, xüsusən də qeyri-neft sektorunun inkişafı baxımından bu, olduqca mühüm hadisədir. Bu layihənin reallaşdırılmasından Çin və Azərbaycanla yanaşı, digər tranzit ölkələr də gəlir əldə edirlər. Təbii ki, belə hadisə layihədə hər hansı səviyyədə iştirak edən dövlətlərin bir-biri ilə münasibətlərini daha da inkişaf etdirir, Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini bir qədər də artırır. Bunlarla belə, 2015-ci ildə mənfi xarakterli hadisələr də baş verdi. Bunlara misal kimi ABŞ Konqresinin üzvü Kristofer Smitin Azərbaycan əleyhinə qətnamə layihəsi ilə çıxış etməsini, manatın dollar qarşısında ikinci dəfə dəyərdən düşməsini və sairi göstərmək olar. Ancaq düşünürəm ki, sağlam təfəkkürlü iqtisadçılarımız müəyyən tədbirlər görəcək, 2016-cı ildə Azərbaycanın iqtisadi çətinlikdən normal çıxması təmin ediləcək, vətəndaşların bundan əziyyət çəkməsinin qarşısı alınacaq.

**Təəssüflər olsun ki, Dağlıq Qarabağ probleminin həlli üçün aparılan danışıqlarda il ərzində hər hansı irəliləyişin şahidi olmadıq. Geosiyasi cəhətdən mürəkkəb bir dünyada vəziyyət Rusiya ilə Qərb arasında qarşıdurma müstəvisinə keçdi. Son zamanlar isə Türkiyə-Rusiya müstəvisində bu qarşıdurmanın müşayiət olunması hansısa nikbin proqnozlar verməyi xeyli çətinləşdirir. Dağlıq Qarabağ probleminin həllində bir sıra aparıcı dövlətlərin rəylərinin də əsas rol oynamasını yaddan çıxarmaq olmaz. Nə vaxta qədər ki Ermənistan işğalçı, sərt və qeyri-konstruktiv mövqe nümayiş etdirəcək, aparıcı dövlətlər Ermənistanın nazı ilə oynayacaq, ona hər hansı formada təzyiq və təsir göstərməyəcəklər, münaqişənin həllini tapması mümkün deyil.**

**- Bu il Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi istiqamətində ATƏT-in Minsk Qrupu çərçivəsində istər Azərbaycan və Ermənistan prezidentləri, istərsə də xarici işlər nazirləri səviyyəsində görüşlər keçirildi. Ümumilikdə bu görüşlər problemin həllində irəliləyiş baxımından nə dərəcədə yaddaqalan oldu?**

- Təəssüflər olsun ki, Dağlıq Qarabağ probleminin həlli üçün aparılan danışıqlarda il ərzində hər hansı irəliləyişin şahidi olmadıq. Geosiyasi cəhətdən mürəkkəb bir dünyada vəziyyət Rusiya ilə Qərb arasında qarşıdurma müstəvisinə keçdi. Son zamanlar isə Türkiyə-Rusiya müstəvisində bu qarşıdurmanın müşayiət olunması hansısa nikbin proqnozlar verməyi xeyli çətinləşdirir. Dağlıq Qarabağ probleminin həllində bir sıra aparıcı dövlətlərin rəylərinin də əsas rol oynamasını yaddan çıxarmaq olmaz. Nə vaxta qədər ki Ermənistan işğalçı, sərt və qeyri-konstruktiv mövqe nümayiş etdirəcək, aparıcı dövlətlər Ermənistanın nazı ilə oynayacaq, ona hər hansı formada təzyiq və təsir göstərməyəcəklər, münaqişənin həllini tapması mümkün deyil. Amma paralel olaraq, bu il ərzində rəsmi Bakı bütün dünyaya sübut etdi ki, Azərbaycan öz torpaqlarının işğal altında qalması ilə heç vaxt razılaşmayacaq. Əgər bütün sülh danışıqları iflasa uğrayarsa, Azərbaycan suveren hüququndan istifadə edərək, hərbi yolla torpaqlarını işğaldan azad edəcək, ərazi bütövlüyünü təmin edəcək. Biz bunu nəinki deyir, şifahi şəkildə bəyanatlarla çıxış edirik, eyni zamanda, ordumuzun mövqelərinə soxulmağa çalışan düşmənə ağır zərbələr vurmaqla öz hərbi gücümüzü göstəririk. Azərbaycan ordusu Ali Baş Komandanın əmrini yerinə yetirmək üçün hərtərəfli imkanlara malikdir. Ordumuzun peşəkar hərbçi heyəti, ən müasir silah-sursat, texnika ilə təmin olunmuş birləşmələrimiz düşməni hər an məhv etməyə qadirdir. Son vaxtlar cəbhə xəttindən gələn xəbərlər də onu deməyə əsas verir ki, ordumuz döyüş şəraitinə tam nəzarət edir, düşmən üzərində üstünlük təşkil edir. Bir sözlə, hərbi potensialımızı sözdə deyil, əməldə artırırıq. Həm hərbi, həm də diplomatik sahədə atdığımız addımlar bu gün münaqişənin həllində konkret nəticə verməsə də, dünyanı, o cümlədən problemin həllinə məsul olan böyük dövlətləri, həmçinin işğalçı Ermənistanı düşünməyə vadar edir.

**- Suriyada cərəyan edən proseslər də il ərzində diqqət mərkəzində oldu. Hazırda bu ölkədə İŞİD-ə qarşı mübarizə aparmaq üçün Rusiya-Suriya-İran-İraq, ABŞ-Türkiyə və digər NATO ölkələri, Səudiyyə Ərəbistanının rəhbərliyi ilə müsəlman dövlətlərindən ibarət koalisiyalar yaradılıb. Bununla bağlı fikirləriniz nədən ibarətdir?**

- Burada 3 amili xüsusi qeyd etmək gərəkdir. Suriya məsələsində bir sıra dövlətlər İŞİD təhlükəsini başa düşərək ona qarşı mübarizə aparırlar. Bu mübarizənin hansı formada aparılması barədə məlumatlar göz qabağındadır. İkinci məqam budur ki, bəzi dövlətlər Suriya amilindən istifadə edərək müxtəlif alyanslar yaradır, öz maraqları uğrunda mübarizə aparırlar. Bu koalisiyalar barədə siz sualınızda qeyd etdiniz. Bu koalisiyalar Suriyadakı qarşıdurmadan daha çox qazanclı çıxmaq üçündür. Eyni zamanda bu, Suriyada maraqların toqquşmasından xəbər verir. Belə bir fonda Azərbaycanın əsas məqsədi ondan ibarət olmalıdır ki, diplomatik sahədə zərgər dəqiqliyi ilə ölçülmüş, çox peşəkar addımlar atılsın, terrora qarşı mübarizə aparmaqla yanaşı, böyük dövlətlərin yanında olsun. Eyni zamanda, alyanslara qoşulmamaqla müəyyən məsafə saxlasın. Yalnız öz dövlət maraqları çərçivəsində hərəkət etsin, öz siyasi maraqlarını üstün tutsun. Siyasi, diplomatik üstünlüklərimiz bundan ibarət olmalıdır.

**- İlin ən əlamətdar hadisələri içərisində neftin qiymətinin dünya bazarında 3 dəfə ucuzlaşmasını, milli valyutanın dollar qarşısında iki dəfə dəyərdən düşməsini də qeyd etmək gərəkdir. Bütün bu hadisələri 2015-ci ilin iqtisadi, yoxsa siyasi hadisəsi kimi qiymətləndirmək daha düzgün olardı?**

- Neftin qiymətinin kəskin aşağı düşməsini həm siyasi, həm də iqtisadi amillə əlaqələndirmək mümkündür. Qiymətin aşağı düşməsinə əsas səbəb dünya bazarında tələbatdan qat-qat artıq neftin olmasıdır. Amma burada siyasi məqsəd, aparıcı dövlətlərin marağı da özünü büruzə verir. Məlumdur ki, əsas neft istehsalçısı olan ölkələr yığışaraq istehsal səviyyəsini 31 milyon barrel həcmində saxladılar. Bu o deməkdir ki, bazara neftə olan tələbatdan çox məhsul çıxarılmalıdır. Təbii ki, bu, neftin qiymətinin ucuzlaşmasına əsas səbəbdir. Neft istehsal edən ölkələrdən biri də Rusiyadır. Rusiya isə hazırda Qərblə qarşıdurma səviyyəsindədir. Rusiyanın Krımı işğal etməsindən, Luqansk və Donetskdə separatçılara dəstək verməsindən sonra Qərb bu ölkəyə qarşı sanksiyaların tətbiq olunmasına qərar verdi. Buna paralel olaraq, Kreml Suriyada Bəşər Əsəd rejiminə dəstək verməklə, orada hərbi əməliyyatlara başlamaqla ABŞ-ın maraqları ilə yenidən toqquşdu. Belə olan halda Qərbin, o cümlədən Amerikanın əsas niyyəti iqtisadi sanksiyalarla bərabər, neftin qiymətində kəskin ucuzlaşmanı təmin etmək, bununla Rusiyaya daha ağır iqtisadi zərbə vurulmasına çalışmaqdır. Bəzən paralellər aparılır və qeyd edilir ki, vaxtilə SSRİ-ni çökdürən Qərb indi də bu yolla Rusiyanı çökdürmək və parçalamaq istəyir. Düşünürəm ki, nə bu dövr o dövr deyil, nə də Rusiya SSRİ kimi gücə sahib deyil. SSRİ-nin tərkibindəki respublikalar müstəqillik əldə edib yollarını Rusiya ilə ayırıblar. Ona görə də Rusiyanı SSRİ ilə mexaniki müqayisə etmək düzgün deyil. Amma ümumilikdə baş verən proseslər Rusiya iqtisadiyyatına, sosial-iqtisadi inkişafına böyük zərbədir. Belə vəziyyətdən çıxmaq Kreml rəhbərliyi üçün çox çətin olacaq.

**- Belə vəziyyətdə Azərbaycan necə davranmalıdır?**

- Azərbaycan belə vəziyyətdən müəyyən nəticə çıxarmalıdır. Olduqca ehtiyatlı davranmalıdır. Çünki dünyada baş verən bu cür proseslərin bizə də təsiri var. Ona görə də təkrarən vurğulamaq istəyirəm ki, belə məsələlərdə biz çox ehtiyatlı olmalıyıq. Elə siyasət həyata keçirməliyik ki, ilk növbədə bizim milli maraqlarımız üstün olsun. Kimə söykənsək də, kimin maraqlarının yanında olsaq da, müstəqil Azərbaycan maraqlarının zərbə altında qalmasına imkan verməməliyik. Budur əsas məqsəd. Mənə elə gəlir ki, bizim diplomatik və siyasi addımlarımız 2016-cı ildə düşünülmüş, ehtiyatlı şəkildə həyata keçirilməlidir.

**Rufik İSMAYILOV**